# Azərbaycanın sülh addımları beynəlxalq miqyasda təqdim olundu

**Prezident İlham Əliyevin Kopenhagenə səfəri ölkəmizin Avropa siyasi məkanındakı fəal rolunun və artan diplomatik çəkisinin növbəti göstəricisidir. Bu iştirak həm Azərbaycanın xarici siyasət prioritetlərinin davamlılığı, həm də Avropa ilə strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

Milli Məclisin deputatı Rəşad Mahmudov qəzetimizə açıqlamasında bildirib ki, Avropa Siyasi Birliyi 2022-ci ildə qitənin müxtəlif ölkələrini - həm Avropa İttifaqına üzv, həm də üzv olmayan dövlətləri bir platformada toplayaraq təhlükəsizlik, enerji, nəqliyyat, iqlim, miqrasiya və sabitlik kimi qlobal məsələlər üzrə dialoqu gücləndirmək məqsədilə yaradılıb: "Azərbaycan bu platformanın ilk gündən etibarən fəal iştirakçılarından biridir. Bu, ölkəmizin qlobal və regional proseslərdə öz mövqeyini birbaşa ifadə etməsinə, həm də yeni əməkdaşlıq istiqamətləri açmasına imkan yaradır. Azərbaycanın bu formatda iştirakı ilk növbədə onun Avropa üçün strateji əhəmiyyət daşıyan enerji və nəqliyyat tərəfdaşı statusunu möhkəmləndirir. Avropanın enerji təchizatında mühüm paya malik olan Azərbaycan bu gün qitənin enerji təhlükəsizliyində etibarlı və uzunmüddətli tərəfdaş kimi tanınır. Bu, təkcə iqtisadi deyil, həm də siyasi etimad məsələsidir. Prezident İlham Əliyevin Kopenhagen sammitində iştirakı bir daha göstərdi ki, Azərbaycan öz enerji potensialını yalnız iqtisadi mənfəət üçün deyil, həm də regional sabitlik və qarşılıqlı etimadın möhkəmlənməsi naminə istifadə edir".

Deputat qeyd edib ki, Avropa Siyasi Birliyində iştirak Azərbaycanın Cənubi Qafqazda sülh və sabitlik istiqamətində atdığı addımların beynəlxalq miqyasda daha dolğun təqdim olunmasına şərait yaradır: "Postmünaqişə dövründə regionda davamlı sülhün və qarşılıqlı etimadın bərqərar olması Azərbaycanın prioritet istiqamətlərindəndir. Belə beynəlxalq platformalarda ölkəmizin bu siyasətinin birbaşa Avropa liderlərinin diqqətinə çatdırılması mühüm diplomatik nəticələr doğurur".



R.Mahmudovun sözlərinə görə, Azərbaycanın bu cür görüşlərdə fəal iştirakı həm də milli maraqlar baxımından çoxvektorlu siyasətin uğurlu təzahürüdür: "Qlobal miqyasda geosiyasi dinamika getdikcə mürəkkəbləşir, yeni iqtisadi və təhlükəsizlik xəritələri formalaşır. Belə şəraitdə Azərbaycanın həm Şərq, həm də Qərb istiqamətində balanslı və rasional siyasət yürütməsi ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini gücləndirir. Avropa Siyasi Birliyi bu baxımdan Azərbaycan üçün əlavə dialoq və əməkdaşlıq meydanıdır, burada səslənən mövqelər təkcə diplomatik bəyanat deyil, həm də gələcək strateji istiqamətlərin bünövrəsidir. Bütün bunlar göstərir ki, Avropa Siyasi Birliyi platformasında Azərbaycanın iştirakı yalnız formal xarakter daşımır. Bu həm dövlətimizin Avropa ilə münasibətlərində yeni səhifənin açılması, həm də milli maraqların beynəlxalq səviyyədə müdafiəsi baxımından əhəmiyyətli addımdır. Azərbaycanın bu proseslərdə iştirakı iqtisadi, siyasi və humanitar aspektlərdə yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edir".

R.Mahmudov bildirib ki, Prezident İlham Əliyevin Kopenhagen Zirvəsində iştirakı Azərbaycanın regionda sabitliyin, qlobal dialoqun və enerji təhlükəsizliyinin mühüm oyunçusu olduğunu bir daha sübut etdi və ölkəmizin Avropa Siyasi Birliyində tutduğu mövqe, qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq xətti gələcək illərdə də Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına xidmət edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 7 oktyabr (№215).- S.6.